

ÜMUMDÜNYA ANTİDOPİNQ MƏCƏLLƏSİ

# BEYNƏLXALQ STANDARTI

# TERAPEVTİK İSTİFADƏ ÜÇÜN İSTİSNALAR

2023

**_Terapevtik İstifadə üçün İstisnalar üçün Beynəlxalq Standart_**

Ümumdünya Antidopinq *Məcəlləsinin Terapevtik İstifadə üçün İstisnalar üzrə Beynəlxalq Standartı*, Ümumdünya Antidopinq Proqramının bir hissəsi kimi hazırlanmış icbari *Beynəlxalq Standartdır*. O, *Məcəlləni İmzalayan Təşkilatlar*, dövlət qurumları və digər müvafiq maraqlı tərəflərlə məsləhətləşmələr əsasında hazırlanmışdır.

*Terapevtik İstifadə üçün İstisnalar üzrə Beynəlxalq Standart*, ilk dəfə 2004-cü ildə qəbul edilmiş və 1 yanvar 2005-ci il tarixində qüvvəyə minmişdir. Ona bundan sonra yeddi dəfə düzəliş edilmişdir, birincisi 2009-cu ilin yanvarında, ikincisi 2010-cu ilin yanvarında, üçüncüsü 2011-ci ilin yanvarında, dördüncüsü 2015-ci ilin yanvarında, beşincisi 2016-cı ilin yanvarında altıncısı 2019-cu ilin yanvarında, yeddincisi isə 2021-cü ilin yanvarında qüvvəyə minmişdir. Bu, düzəlişlər edilmiş variant ÜADA-nın İcraiyyə Komitəsi tərəfindən 23 sentyabr 2022-ci il tarixində qəbul olunmuşdur və 1 yanvar 2023-ci il tarixində qüvvəyə minmişdir.

Tərcümə edib: AMADA — Azərbaycan Milli Antidopinq Agentliyi

World Anti-Doping Agency Stock Exchange Tower
800 Place Victoria (Suite 1700) PO Box 120
Montreal, Quebec
Canada H4Z 1B7

www.wada-ama.org

Tel: + 1 514 904 9232 Fax: + 1 514 904 8650 E-mail: code@wada-ama.org

WORLD ANTI-DOPING AGENCY
play true

## MÜNDƏRİCAT


**BİRİNCİ HİSSƏ: GİRİŞ, *MƏCƏLLƏNİN* MÜDDƏALARI, *BEYNƏLXALQ STANDARTIN* MÜDDƏALARI VƏ ANLAYIŞLAR……………………………………………………3**

1.0 Giriş və təsir dairəsi ........................................................................................3

2.0 *Məcəllənin* müddəaları ....................................................................................3

3.0 Anlayışlar və şərh ............................................................................................3

3.2 Məxfilik və Şəxsi məlumatların Qorunması üzrə *Beynəlxalq Standartda* müəyyən edilmiş anlayışlar **........................................................................8**

**İKİNCİ HİSSƏ: *Tİİ* TƏMİN EDİLMƏSİ PROSESİ VƏ STANDARTLARI ..........................9**

4.0 *Tİİ* əldə edilməsi ...............................................................................................9

5.0 *ANTİDOPİNQ TƏŞKİLATLARININ Tİİ* ÜZRƏ ÖHDƏLİKLƏRİ ......................................12

6.0 *Tİİ* QƏRARININ ALINMASI ÜÇÜN MÜRACİƏT PROSESİ ............................................14

7.0 *Tİİ* Tanınma Prosesi.........................................................................................17

8.0 *Tİİ* qərarlarının *ÜADA* tərəfindən nəzərdən keçirilməsi ..........................................18

9.0 Məlumat məxfiliyi .............................................................................................20

**Əlavə I: *Məcəllənin* 4.4-cü maddəsinin qrafikləri ..............................................................21**

## BİRİNCİ HİSSƏ: GİRİŞ, *MƏCƏLLƏNİN* MÜDDƏALARI, *BEYNƏLXALQ STANDARTIN* MÜDDƏALARI VƏ ANLAYIŞLAR

### 1.0 Giriş və təsir dairəsi

*Terapevtik İstifadə üçün İstisnalar üzrə Beynəlxalq Standart*, Ümümdünya Antidopinq Proqramının bir hissəsi kimi hazırlanmış məcburi *Beynəlxalq Standart* sayılır.

*Terapevtik İstifadə üçün İstisnalar üzrə Beynəlxalq Standartın* məqsədi aşağıdakı kimidir: (a) *Terapevtik İsitifadə üçün İstisnanın* (və ya *TİI*) verilməsi üçün zəruri olan, bununla *İdmançının Nümunəsində Qadağan Edilmiş Maddənin* mövcudluğuna və ya *İdmançının Qadağan Edilmiş Maddə və ya Üsulun İstifadəsi və ya İstifadəsinə Cəhdlərə* Terapevtik səbəblər üçün icazə verilməsi üçün şərtlərin təmin edilməsi; (b) *Antidopinq Təşkilatlarına TİI* qərarlarının verilməsi və bildirilməsi üzrə təyin edilmiş öhdəliklər; (c) *İdmançının*, *TİI* alınması üçün müraciət etmə prosesi; (d) *İdmançı* üçün bir *Antidopinq Təşkilatı* tərəfindən ona verilən *TİI* qərarının digər *Antidopinq Təşkilatı* tərəfindən tanınması üçün prosses; (e) *TİI* qərarlarına *ÜADA* tərəfindən yenidən baxılması prossesi; və (f) *TİI* prossesinə tətbiq edilən sərt məxfilik müddəaları.

Hazırkı *Beynəlxalq Standartda* istifadə olunan və *Məcəllədə* izah edilən anlayışlar “İtalics” şrifti ilə göstərilib. Bu ya digər *Beynəlxalq Standartda* izah edilən anlayışlar alt xəttlə vurğulanıb.

### 2.0 *Məcəllənin* müddəaları

2021-ci ilin *Məcəlləsinin* aşağıdakı maddələri, *Terapevtik İstifadə üçün İstisnalar üzrə Beynəlxalq Standarta* birbaşa şamil edilir:

*Məcəllə* Maddə 4.4 *Terapevtik İstifadə üçün İstisnalar ("TİI")*
*Məcəllə* Maddə 13.4 TİI-lər bağlı üzrə apellyasiya

### 3.0 Anlayışlar və şərh

#### 3.1 2021-ci ilin Məcəlləsində izah olunan və *Terapevtik İstifadə üçün İstisnalar üzrə Beynəlxalq Standartda* istifadə olunan terminlər aşağıdakı kimidir:

***ADAMS (ADAMS)***: Antidopinq İnzibatçılıq və İdarəetmə Sistemi maraqlı tərəflər və *ÜADA* üçün məlumatların qorunması üzrə qanunvericiliyi və antidopinq əməliyyatlarının aparılmasını təmin etmək məqsədilə yaradılmış məlumatların daxil edilməsi, saxlanılması, mübadiləsi və hesabat verilməsi üçün veb əsaslı idarəetmə vasitəsidir.

***Tətbiq etmək (Administration)***: *Qadağan edilmiş Maddənin* və ya *Qadağan edilmiş Üsulun* digər *Şəxs* tərəfindən *İstifadəsində* və ya *İstifadə cəhdində* iştirak etmək, bunun üçün onu təmin etmək, təchiz etmək, ona nəzarət etmək və ya dəstək göstərmək. Lakin, bu anlayış tibb heyətin həqiqi və qanuni terapevtik və ya digər əsaslandırılmış məqbul hesab edilən məqsədlər üçün atlımış vicdanlı əməllərini (actions of *bona fide*) və *yarışdan kənar müddət testində* qadağan edilməyən *Qadağan edilmiş Maddələrlə* bağlı əməlləri ehtiva etməməlidir, o halda ki məsələ ümumilikdə *Qadağan edilmiş Maddənin* idman göstəricilərinin artırılması məqsədini

daşımaması və ya həqiqi və qanuni Terapevtik məqsədlər üçün nəzərdə tutulmasını göstərmiş olsun.

***Qeyri-əlverişli Analiz Nəticəsi (Adverse Analytical Finding)***: *ÜADA* tərəfindən akkreditə edilmiş laboratoriya və ya *ÜADA* tərəfindən təsdiq edilmiş laboratoriya tərəfindən *Laboratoriyalar üzrə Beynəlxalq Standarta* uyğun olaraq *Qadağan edilmiş Maddənin* və ya onun *Metabolitlərinin* və ya *Markerlərinin nümunədə* mövcudluğunu və ya *Qadağan edilmiş Üsulun istifadəsi* sübutunu təsbit edən hesabat.

***Antidopinq Təşkilatı (Anti-Doping Organization)***: *ÜADA* və ya *Dopinq Nəzarəti* prosesinin hər hansı hissəsinin başlanması, yerinə yetirilməsi və ya təmin edilməsi üçün qaydaların qəbul edilməsi üzrə cavabdehlik daşıyan *Məcəlləni imzalayan təşkilat*. Bura, məsələn, Beynəlxalq Olimpiya Komitəsi, Beynəlxalq Paralimpiya Komitəsi, *tədbirlərində testi* həyata keçirən digər *Əsas Tədbir Təşkilatı,* Beynəlxalq Federasiyalar və Milli Antidopinq Təşkilatları. .

***İdmançı (Athlete)***: Beynəlxalq səvviyədə (hər bir Beynəlxalq Federasiya tərəfindən nəzərdə tutulmuş qaydada) və ya milli səviyyədə (hər bir *Milli Antidopinq Təşkilatı* tərəfindən nəzərdə tutulmuş qaydada) idmanda yarışan hər hansı *Şəxs*. *Anitdopinq Təşkilatı* nə *Beynəlxalq səviyyəli İdmançı*, nə də *Milli səviyyəli İdmançı* hesab edilməyən *İdmançıya* Antidopinq Qaydalarını tətbiq etmək və onu "*İdmançı*" kateqoriyasına aid etmək ixtiyarındadır. Nə *Beynəlxalq səviyyəli İdmançı*, nə də *Milli səviyyəli İdmançı* hesab edilməyən *İdmançılarla* bağlı *Anitdopinq Təşkilatı* növbəti qərarları qəbul edə bilər: məhdud *Testin edilməsi* və ya heç bir *Testin edilməməsi*, *nümunələrin Qadağan edilmiş Maddələrin* natamam siyahısı üçün analiz edilməsi, məkan məlumatının məhdud qaydada tələb edilməsi və ya tamamilə tələb edilməməsi, və ya *TİI*-lərin əvvəlcədən tələb edilməməsi. Lakin, *Antidopinq Təşkilatı* tərəfindən *Test* edilən və *Beynəlxalq və ya Milli səviyyədən* aşağı səviyyədə yarışan hər hansı *İdmançı* tərəfindən 2.1-ci, 2.3-cü və 2.5-ci maddələri ilə müəyyən edilmiş anitdopinq qayda pozuntusu törədildikdə, *Məcəllədə* müəyyən edilmiş *Sanksiyalar* tətbiq edilməlidir. 2.8-ci və 2.9-cu maddələrinin və antidopinq məlumatlandırılma və *Təhsil* məqsədləri üçün *Məcəlləni* qəbul edən hər hansı *Məcəlləni imzalayan təşkilatın*, dövlətin və ya digər idman təşkilatının səlahiyyətinə aid edilən idmanda istirak edən hər hansı *Şəxs İdmançı* hesab edilir.[1]

***Cəhd***: Məqsədli bir antidopinq qayda pozuntusu ilə nəticələnməsi planlaşdırılan bir davranışda əhəmiyyətli bir addım təşkil edən davranış. Ancaq bir şərtlə ki, *Şəxs* cəhddən əvvəl iştirak etməyən üçüncü *Şəxs* tərəfindən aşkarlanmadan cəhddən imtina edərsə, yalnız pozuntu cəhdinə əsaslanan antidopinq qayda pozuntusu olmayacaqdır.

***CAS***: İdman Arbitraj Məhkəməsi

[1] *[İdmançıya şərh: İdmanla məşğul olan şəxslər aşağıdakı beş (5) kateroqriyadan birinə aid ola bilər: 1) beynəlxalq səviyyəli İdmançı, 2) milli səviyyəli İdmançı, 3) beynəlxalq və ya milli səviyyəli İdmançı olmayan, lakin Beynəlxalq Federasiya və ya Milli Antidopinq Təşkilatı üzərində öz səlahiyyətini həyata keçirməyi seçdiyi şəxs, 4) Bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan şəxs, və 5) lakin Beynəlxalq Federasiya və ya Milli Antidopinq Təşkilatı üzərində öz səlahiyyətini həyata keçirməyi seçmədiyi şəxs. Bütün beynəlxalq və milli səviyyəli idmançılar milli və beynəlxalq səviyyəli idmanın dəqiq anlayışının Milli Antidopinq Təşkilatlarının və Beynəlxalq Federasiyaların antidopinq qaydalarında göstərilməklə Məcəllənin antidopinq qaydalarına.]*

***Məcəllə***: Ümümdünya Antidopinq Məcəlləsi.

***Yarış (Competition)***: Tək yarış, qarşılaşma, oyun və ya tək idman müsabiqəsi. Məsələn, basketbol oyunu və ya Olimpiya oyunlarında atletika üzrə 100 metr məsafədə yarışın finalı. Mükafatların gündəlik və ya digər aralıq əsasda təltif edildiyi çoxmərhələli yarışlar digər idman müsabiqələrində *Yarış* və *Tədbir* arasında fərq müvafiq Beynəlxalq Federasiyanın qaydaları ilə müəyyən edilir.

***Təhsil ( Education):*** İdman ruhunun qorunması və inkişaf etməsi üçün dəyərlərə və davranışlara yiyələnmək, o cümlədən qəsdən və ya ehtiyatsızlıqdan olan dopinqin qarşısını almaq məqsədilə öyrənmə prosesi

***Tədbir (Event)***: Bir qurumun hakimliyi altında həyata keçirilmiş bir sıra fərdi *Yarışlar* (məsələn, Olimpiya Oyunları, Beynəlxalq Federasiyanın Dünya Çempionatları və ya Pan-Amerika Oyunları).

***Yarış müddəti (In-Competition)***: *İdmançının* iştirak edəcəyi *Yarışdan* əvvəlki bir gün saat 23:59-dan başlayan və *Yarışın* və həmin *Yarışla* əlaqədar *Nümunə* toplanması prosesinin bitdiyi ana qədər olan müddət. Lakin, müəyyən idman növləri üçün alternativ anlayış *ÜADA* tərəfindən təsdiq edilə bilər, o halda ki, Beynəlxalq Federasiya fərqli anlayışın onun idman növünə tətbi edilməsi zərurətini əsaslandırsın. *ÜADA* tərəfindən təsdiq edildikdən sonra alternativ anlayış həmin idman növü üzrə *Əsas Tədbir Təşkilatı* tərəfindən riayət edilməlidir.[2]

***Beynəlxalq tədbir (International Event)*:** Beynəlxalq Olimpiya Komitəsinin, Beynəlxalq Paralimpiya Komitəsinin, Beynəlxalq Federasiyanın, *Əsas Tədbir Təşkilatının* və ya digər beynəlxalq idman təşkilatının hakim olduğu və ya texniki rəsmiləri təyin etdiyi *Tədbir* və ya *Yarış.*

***Beynəlxalq səviyyəli İdmançı (International-Level Athlete)*:** *Test* etmə və Təhqiqatlar üzrə *Beynəlxalq Standarta* uyğun olaraq hər bir Beynəlxalq Federasiya tərəfindən müəyyən edilən beynəlxalq səviyyədə idmanda yarışan *İdmançı*.[3]

**Beynəlxalq Standart**: *Məcəllənin* dəstəklənməsi ilə *ÜADA* tərəfindən qəbul edilmiş bir standart. *Beynəlxalq Standarta* uyğunluq (başqa alternativ standartdan, təcrübədən və ya prosedurdan fərqli olaraq), *Beynəlxalq Standartın* ünvanladığı prosedurların lazımi qaydada yerinə yetirildiyi qənaətinə gəlmək üçün kifayətdir. *Beynəlxalq Standartlara Beynəlxalq Standarta* uyğun olaraq verilmiş hər hansı *Texniki Sənədlər* daxil edilir.

---

[2] *[Yarış müddətinə şərh: "Yarış müddətində"nin hamı tərəfindən vahid anlayışının qəbul edilməsi bütün idman növləri üzrə çıxış edən idmançılar arasında daha çox uyğunlaşmanı, harmonizasiyanı təmin edir, yarış müddətində testin edilməsi ilə bağlı məqbul zaman çərçivəsi ilə bağlı idmançılar arasında çaşqınlığı, anlaşılmazlığı azaldır və ya aradan qaldırır, yarışlar arasında tədbir çərçivəsində qəsdən törədilməyən Qeyri-əlverişli Analiz Nəticələrinin qarşısını alır və yarışdan kənar müddətdə Qadağan edilmiş edilmiş Maddələrdən yarış müddətində idman göstəricilərinin yaxşılaşdırılması üçün istifadəsinin qarşısını almağa kömək edir.]*

[3] *[Beynəlxalq səviyyəli idmançıya şərh: Test etmə və Təhqiqatlar üzrə Beynəlxalq Standarta uyğun olaraq, Beynəlxalq Federasiya beynəlxalq səviyyəli idmançıları təsnifləşdirmək üçün istifadə edəcəyi meyarları müəyyən etməkdə sərbəstdir, məsələn, sıralamaya görə, xüsusi Beynəlxalq Tədbirlərdə iştiraka görə, verilən lisenziyaya görə və s. Lakin, idmançıların nə zaman beynəlxalq səviyyəli İdmançı kimi təsnif olunacaqlarını qısa zaman ərzində və asanlıqla müəyyənləşdirmələri üçün Beynəlxalq Federasiya meyarları aydın və dəqiq formada dərc etməlidir. Məsələn, əgər meyarlara müəyyən beynəlxalq tədbilərdə iştirak daxildirsə, Beynəlxalq Federasiya həmin Beynəlxalq Tədbirlərin Siyahısını dərc etməlidir.]*

WORLD ANTI-DOPING AGENCY
play true

***Əsas Tədbir Təşkilatı (Major Event Organizations)***: Hər hansı kontinental, regional və ya digər *Beynəlxalq Tədbir* üçün hakim qurum kimi fəaliyyət göstərən *Milli Olimpiya Komitələrinin* kontinental assosiasiyaları və digər beynəlxalq çoxidman təşkilatları.

***Milli Antidopinq Təşkilatı (National Anti-Doping Organization)***: Hər ölkə tərəfindən milli səviyyədə Antidopinq Qaydalarının qəbulu və həyata keçirilməsi, *Nümunələrin* toplanmasının idarə edilməsi, test nəticələrinin idarə edilməsi və *Nəticələrin Emalının* həyata keçirilməsi üçün əsas səlahiyyət verilmiş və məsuliyyət daşıyan qurum və ya qurumlar. Bu təyinat müvafiq səlahiyyətli dövlət qurumu və ya qurumları tərəfindən edilməmişdirsə, həmin qurum ölkənin *Milli Olimpiya Komitəsi* və ya onun təyin etdiyi qurum olmalıdır.

***Milli səviyyəli İdmançı (National-Level Athlete)***: *Test etmə* və Təhqiqatlar üzrə *Beynəlxalq Standarta* uyğun olaraq hər bir *Milli Antidopinq Təşkilatı* tərəfindən müəyyən edilən milli səviyyədə idmanda yarışan *İdmançı*. Azərbaycanda *Milli səviyyəli İdmançı* bu Anitdopinq Qaydalarının giriş hissəsində müəyyən edilir (“Anitdopinq Qaydalarının əhatə dairəsi” bölməsi).

***Yarışdan kənar müddət:*** *Yarış* müddəti olmayan hər hansı müddət.

***Sahiblik (Possession)***: Faktiki, fiziki *Sahiblik* və ya dolayı *Sahiblik* (*Şəxsin Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsul* üzərində müstəsna nəzarət imkanı olduğu, yaxud onun *Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsul* və ya həmin maddə və üsulun yerləşdiyi yerlər üzərində müstəsna nəzarət imkanını əldə etmək niyyəti olduğu hallarda baş verir); lakin *Şəxsin Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsul* və ya həmin maddə və üsulun yerləşdiyi yerlər üzərində müstəsna nəzarət imkanı yoxdursa, dolayı *Sahiblik* faktı yalnız o zaman baş verir ki, həmin *Şəxsin Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsulun* mövcudluğu barədə məlumatı olsun və o, onun üzərində nəzarət imkanını əldə etmək niyyətində olsun. *Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsula* malik *Şəxsin* antidopinq qayda pozuntusu törətməsi barədə hər hansı bildirişin alınmasından əvvəl *Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsuldan* heç zaman istifadə etmək niyyətində olmadığını göstərmək üçün müəyyən tədbir görməsi və *Sahiblikdən* imtina etdiyini açıq şəkildə *Antidopinq Təşkilatına* elan etməsi hallarında yalnız *Sahiblik* əsasında antidopinq qayda pozuntusunun törədilməsi müəyyən edilə bilinməz. Bu anlayışdakı hər hansı şərtlərə baxmayaraq, *Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsulun* (elektron və ya digər vasitə daxil olmaqla) satınalınmasını etmiş *Şəxs* tərəfindən *Sahiblik* hesab edilir.[4]

***Qadağan Edilmiş Siyahı (Prohibited List)***: *Qadağan edilmiş Maddələri* və *Qadağan edilmiş Üsulları* təsvir edən siyahı.

---

4 *Sahibliyə şərh: Bu anlayışa görə idmançının avtonəqliyyat vasitəsində aşkar edilmiş anabolik steroidlər, idmançının, avtonəqliyyat vasitəsinin digər şəxs tərəfindən istifadəsi faktı müəyyən etmədiyi təqdirdə, pozuntuya gətirib çıxaracaq; digər şəxs tərəfindən avtonəqliyyat vasitəsindən istifadə müəyyən olunduqda Antidopinq Təşkilatı idmançının avtonəqliyyat vasitəsi üzərində müstəsna nəzarətə malik olmadığı halda belə, anabolik steroidlər haqqında xəbərdar olması və onlar üzərində nəzarəti əldə etmək niyyətinin olmasını müəyyən etməlidir. Eynilə, İdmançı və həyat yoldaşının birgə istifadəsində olan ilk tibbi yardım dəstində tapılan anabolik steroidlər ilə bağlı Antidopinq Təşkilatı müəyyən etməlidir ki, İdmançı həmin tibbi yardım dəstində anabolik steroidlərin olması haqqında məlumatlı idi və onlar üzərində nəzarəti həyata keçirmək niyyəti var idi. Qadağan edilmiş Maddəni satın alma aktı hətta misal üçün, həmin maddə gəlib çıxmadıqda və ya digər şəxs tərəfindən qəbul edildikdə və ya üçüncü şəxsin ünvanına göndərildikdə belə sahiblik təşkil edir.*

***Qadağan Edilmiş Üsul* (Prohibited Method)**: *Qadağan edilmiş Siyahı* ilə müəyyən edilən hər hansı üsul.

***Qadağan Edilmiş Maddə* (Prohibited Substance)**: *Qadağan edilmiş Siyahı* ilə müəyyən edilə hər hansı maddə və ya maddələr sinfi.

***Bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan İdmançı* (Recreational Athlete):** Bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan *Şəxs*, yəni bədən tərbiyəsi məqsədləri üçün idmanda və ya fitnesdə iştirak edən, lakin Milli Federasiya və ya hər hansı əlaqəli və qeyri-əlaqəli assosiasiya, təşkilat, klub, komanda və ya liqa tərəfindən təşkil edilən, tanınan və ev sahibliyi etdiyi *Yarış* və ya *Tədbirlərdə* iştirak etməyən və hər hansı antidopinq qayda pozuntusu törətməzdən əvvəl beş (5) il ərzində *Beynəlxalq səviyyəli İdmançı* (*Test etmə* və Təhqiqatlar üzrə *Beynəlxalq Standarta* uyğun olaraq hər bir Beynəlxalq Federasiyanın müəyyən etdiyi kimi) və ya *Milli səviyyəli İdmançı* (*Test etmə* və Təhqiqatlar üzrə *Beynəlxalq Standarta* uyğun olaraq AMADA və ya digər *Milli Antidopinq Təşkilatının* müəyyən etdiyi kimi) olmayan; açıq kateqoriyada Azərbaycanı və ya digər ölkəni *Beynəlxalq Tədbirdə* təmsil etməyən; və ya hər hansı Beynəlxalq Federasiya, AMADA və ya digər *Milli Antidopinq Təşkilatı* tərəfindən saxlanılan hər hansı *Qeydiyyata alınmış Test Qrupuna* və ya digər məkan məlumatı qrupuna daxil edilməmiş hər hansı şəxs.

*[Bədən tərbiyyəsi ilə peşəkar səviyyədə məşğul olan İdmançı üçün şərh: "açıq kateqoriya" anlayışı yunior və ya yaş qruplarına aid olan yarışların istisna edilməsi üçün nəzərdə tutulur.]*

***Nəticələrin Emalı* (Results Management)**: *Nəticələrin Emalı üzrə Beynəlxalq Standartın* 5-ci maddəsi ilə nəzərdə tutulmuş bildirişlə, və ya digər hallarda (məsələn, *Atipik Nəticə, İdmançının Bioloji Pasportu,* məkan məlumatı pozuntusu) *Nəticələrin Emalı üzrə Beynəlxalq Standartın* 5-ci maddəsi ilə xüsusilə nəzərdə tutulmuş qaydada bildiriş qabağı həyata keçirilən addımlarla, sanksiya təklifi, birinci və ya apellyasiya instansiyalarında (apellyasiya qaydasında şikayət verilmişsə) dinləmə prossesi daxil olmaqla, məsələ üzrə yekun qərarın verilməsi arasındaki prosses.

***Nümunə* (Sample or Specimen)**: *Dopinq Nəzarəti* məqsədləri üçün toplanmış hər hansı bioloji material.[5]

***Test etmə* (Testing)**: Test bölüşdürülmə planını, *Nümunənin* toplanmasını, *Nümunə* ilə davranışı və *Nümunənin* laboratoriyaya nəql edilməsini daxil edən *Dopinq Nəzarətinin* hissəsi.

***Terapevtik İstifadə üçün İstisna (Tİİ)* (Therapeutic Use Exemption (TUE))**: 4.4-cü maddənin və *Terapevtik İstifadə üçün İstisna üzrə Beynəlxalq Standartın* tələblərinə uyğun olaraq *Terapevtik İstifadə üçün İstisna İdmançıya* tibbi məqsədlər üçün *Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsulun İstifadəsinə* imkan yaradır.

[5] *[Nümunəyə şərh: Bəzən qan nümunələrinin toplanmasının müəyyən dini və ya mədəni qrupların prinsiplərini pozduğu iddia edilir. Müəyyən edilmişdir ki, belə iddialara heç bir əsas yoxdur.]*

***İstifadə (Use)***: *Qadağan edilmiş Maddənin* və ya *Qadağan edilmiş Üsulun* hər hansı şəkildə istifadəsi, tətbiqi, qəbulu, inyeksiyası və ya istehlakı.

***ÜADA***: Ümumdünya Antidopinq Agentliyi

**3.2 Məxfilik və Şəxsi məlumatların Qorunması üzrə *Beynəlxalq Standartda* müəyyən edilmiş anlayışlar**

**Şəxsi məlumat**: *Antidopinq Təşkilatı tərəfindən* yalnız *antidopinq fəaliyyəti* çərçivəsində emal edilən, məhdudiyyət olmadan həssas Şəxsi məlumatlar daxil olmaqla, müəyyən edilmiş və ya müəyyən edilə biləcək *İştirakçı* və ya digər Ş*əxslərə* aid məlumat.[6]
**Emal etmə** (və onunla eyni kökdən əmələ gəlmiş sözlər, yəni **Emal** **və** **Emal edilmiş**)**:** Şəxsi məlumatların toplanması, əldə edilməsi, saxlanması, açıqlanması, ötürülməsi, dəyişdirilməsi, silinməsi və ya digər şəkildə istifadə edilməsi.

**3.3 *Terapevtik İstifadə üçün İstisnalar* üzrə *Beynəlxalq Standarta xas* müəyyən edilmiş xüsusi anlayışlar:**

**Terapevtik**: Müvafiq xəstəliklərin müalicəsi üçün və ya onlara aid müalicəvi xüsusiyyətlərə malik dərman vasitələr və ya üsulların tətbiqi; və ya müalicənin təmin edən, yaxud müalicəyə dəstək olan.

***Terapevtik İstifadə üçün İcazə* Komitəsi (və ya "TİİK")**: *TİI* müraciətlərinə baxılması üçün *Antidopinq Təşkilatı* tərəfindən yaradılmış komitə.

***ÜADA* TİİK:** *ÜADA* tərəfindən yaradılmış və digər *Antidopinq Təşkilatlarının TİI* qərarlarına yenidən baxılması üçün nəzərdə tutululan qurum.

**3.4. Şərh**

**3.4.1.** *Terapevtik İstifadə üçün İstisnalar* üzrə *Beynəlxalq Standartın* rəsmi mətni ingilis və fransız dillərində çap edilməlidir. İngilis və fransız dilləri versiyaları arasında hər hansı bir münaqişə halında ingilis dilində olan versiyaya üstünlük verilir.

**3.4.2.** *Məcəllə*nin tərtibatında olduğu kimi, *Terapevtik İstifadə üçün İstisnalar* üzrə *Beynəlxalq Standart* da tərtib edilən zaman mütənasiblik prinsipləri, insan hüquqları və digər müvafiq hüquqi prinsiplər nəzərə alınmışdır. O, bu nöqteyi-nəzərdən şərh və tətbiq edilməlidir.

**3.4.3.** *Terapevtik İstifadə üçün İstisnalar* üzrə *Beynəlxalq Standartın* müxtəlif müddəalarına dair şərhlər müddəaların təfsirində rəhbər tutulmalıdır.

[6] *Şəxsi məlumata şərh: Hesab edilir ki, Şəxsi məlumat özündə, bunlarla məhdudlaşmayan, idmançının adı, doğum tarixi, əlaqə məlumatları, idman təşkilatlarında üzvlüyü, məkan məlumatı, şamil edilən TİI-ləri (olduqda), antidopinq test nəticələri və nəticələrin emalı (o cümlədən, intizam dinləmələri, apellyasiya və sanksiyalar) üzrə məlumatları ehtiva edir. Şəxsi məlumat, əlavə olaraq digər şəxslər, məsələn antidopinq fəaliyyəti çərçivəsində İdmançı ilə işləyən, onu müalicə edən və ya ona kömək edən tibb işçiləri və ya digər şəxslər barədə məlumatı daxil edir. Həmin məlumat Şəxsi məlumat olaraq qalır və bütün işlənmə müddəti ərzində müvafiq fərdin mütəşəkkil idman fəaliyyətində iştirak edib-etməməsindən asılı olmayaraq bu standart vasitəsilə tənzimlənir.*

**3.4.4.** Digər hal nəzərdə tutulmadıqda, bölmə və maddələrə istinadlar, *Terapevtik İstifadə üçün İstisnalar* üzrə *Beynəlxalq Standartın* bölmə və maddələrinə istinadlar deməkdir.

**3.4.5.** Digər hal nəzərdə tutulmadıqda, *Terapevtik İstifadə üçün İstisnalar* üzrə *Beynəlxalq Standartda* istifadə edilən "günlər" sözü təqvim günləri deməkdir.

**3.4.6.** *Terapevtik İstifadə üçün İstisnalar* üzrə *Beynəlxalq Standarta* Əlavələr, *Beynəlxalq Standartın* digər hissələri kimi eyni məcburi qüvvəyə malikdir.

## İKİNCİ HİSSƏ: *Tİİ* TƏMİN EDİLMƏSİ PROSESİ VƏ STANDARTLARI

### 4.0 *Tİİ* əldə edilməsi

**Terapevtik** məqsədlə *Qadağan Edilmiş Maddə* və ya *Üsuldan İstifadə* etməli olan *İdmançı,* Maddə 4.1-ə uyğun olaraq retroaktiv Tİİ üçün müraciət etmək hüququna malik olmadığı halda, sözügedən üsulu və ya maddəni *İstifadə* etməzdən və ya ona *Sahib* olmazdan öncə *Tİİ* üçün müraciət etməli və onu əldə etməlidir. Hər iki halda 4.2-ci maddənin şərtləri yerinə yetirilməlidir

*[Maddə 4.0 üçün şərh: İdmançının antidopinq qaydalarına məruz qalmazdan əvvəl xəstəliyin mövcud olduğu və Qadağan Edilmiş Maddədən və ya Qadağan Edilmiş Üsuldan İstifadə etdiyi və ya Sahib olduğu hallar ola bilər. Bu halda, bu cür əvvəlki İstifadə/Sahiblik Tİİ tələb etmir və prospektiv Tİİ kifayətdir.]*

**4.1.** Retroaktiv TİI *İdmançıya* sözügedən maddə və ya üsuldan *İstifadə* edəndən və ya Sahib olduqdan sonra *Qadağan Edilmiş Maddə* və ya *Qadağan Edilmiş Üsul* üçün TİI üçün müraciət etmək imkanı verir.

*İdmançı*, aşağıda qeyd edilən istisnalardan hər hansı tətbiq olunarsa (yenə də 4.2-ci maddənin şərtlərini qarşılanması ilə) *TİI* üçün retroaktiv müraciət edə bilər:

a) Xəstəliyin təcili və təxirəsalınmaz müalicəsinə zərurət yarandıqda;

b) *İdmançının Nümunələrin* toplanmasından əvvəl *TİI* qərarı üçün müraciət etməyə (və ya TİİK-ə onu nəzərdən keçirməyə) yetərli zaman, imkanın olmaması və ya digər fövqəladə hallar səbəbindən mümkün olmamışdır;

c) Müəyyən idman növlərinin və ya yarımnövlərinin milli səviyyədə prioritetləşdirilməsi səbəbilə *İdmançının Milli Antidopinq Təşkilatı* ona öncədən *TİI* üçün müraciət etməyə icazə verməmiş və ya ondan müraciət etməsini tələb etməmişdir (5.1-ci maddənin şərhinə baxın).

d)*Antidopinq Təşkilatı*, *Beynəlxalq səviyyəli* və ya *Milli səviyyəli İdmançı* olmayan *İdmançını Test* etməyi seçdikdə, o, həmin *İdmançıya* onun <u>Terapevtik</u> məqsədlər üçün İstifadə etdiyi hər hansı *Qadağan edilmiş Maddə və ya Qadağan edilmiş Üsula* dair retroaktiv qaydada *TİI* üçün müraciət etməyə icazə verməlidir; və ya

e) *İdmançı*, *Yarışdan kənar müddətdə* <u>Terapevtik</u> məqsədlə yalnız *Yarış Müddətində Qadağan edilmiş Maddədən İstifadə* etdikdə.

*[Maddə 4.1 üçün şərh: Retroaktiv istisnalardan birinin yerinə yetirilməsi TİI-nin mütləq veriləcəyi deməmk deyil; bu o deməkdir ki, İdmançının müraciəti 4.2-ci maddəyə uyğun olaraq müəyyən edilmiş TİI şərtlərinin təmin edilib-edilmədiyini müəyyən etmək üçün qiymətləndirilə bilər.]*

*[4.1-ci maddənin (c), (d) və (e) bəndlər üçün şərh: Bu növ idmançılara, Nümunə toplanmasından sonra retroaktiv TİI-ə ehtiyyac yaranması halında 4.2-ci maddədə müəyyən edilmiş TİI tələblərinin qarşılandığını göstərmək üçün tibbi işinin materiallarını öncədən hazırlamaq və lazım gəldiyində təqdim edilmə üçün hazır etmək qətiyyətlə tövsiyyə edilir]*

*[4.1-ci maddənin (e) bəndi üçün şərh: Bu, İdmançının terapevtik məqsədlər üçün yalnız Yarış müddətində qarağan edilmiş Maddəni Yarışdan kənar müddətdə İstifadə etdiyi, lakin maddənin Yarış müddətində onların sistemlərində qalması riskinin olduğu halların həlli üçün nəzərdə tutulub. Belə hallarda, Antidopinq Təşkilatı İdmançıya retroaktiv TİI üçün müraciət etməsi üçün icazə verməlidir (əgər o, öncədən müraciət etməyibsə). Bu, həmçinin, Antidopinq Təşkilatları tərəfindən zəruri olmaya bilən TİI müraciətlərinə baxma zərurətindən azad edir.]*

**4.2** *İdmançıya TİI* təmin edilə bilər o şərtlə ki, (və yalnız o şərtlə ki,) o, ehtimallar balansı ilə aşağıdakı şərtləri qarşılaya bilsin:

a) Sual altında olan *Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsul*, müvafiq kliniki dəlillərlə dəstəklənmiş diaqnozlu tibbi vəziyyətin müalicəsi üçün tələb olunur.

*[4.2-ci maddənin (a) bəndi üçün şərh: Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsul* müalicənin yox, zəruri diaqnostikanın da bir hissəsi ola bilər]

b) *Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsul*, ehtimallar balansı ilə, *İdmançının* normal sağlamlıq vəziyyətinə qayıtmasından sonra gözlənilə biləndən kənara çıxan hər hansı əlavə idman göstəricilərinin artımına səbəb olmayacaq.

*[4.2-ci maddənin (b) bəndi üçün şərh: İdmançının normal sağlamlıq vəziyyəti fərdi əsaslarla müəyyən edilir. Konkret İdmançının normal sağlamlıq vəziyyəti, İdmançının TİI əldə etmək istədiyi tibbi vəziyyəti istisna etməklə, onun sağlamlığının vəziyyətidir.]*

c) *Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsul* tibbi vəziyyət üçün təyin edilmiş müalicədir və başqa bir ağlabatan icazə verilən <u>Terapevtik</u> alternativ mövcud deyil.

*[Maddə 4.2 (c) üçün şərh: Həkim niyə məhz bu müalicə üsulunun ən uyğun üsul olduğunu əsaslandımalıdır; məsələn, təcrübəyə əsaslanaraq, əlavə təsir profilləri və ya, əgər müvafidirsə, coğrafiyadan asılı tibbi protokollar və dərman əlçatanlığı daxil olmaqla digər tibbi əsaslandırmalar. Əlavə olaraq, Qadağan edilmiş Maddə və ya Qadağan edilmiş Üsuldan İstifadədən əvvəl alternativləri yoxlayıb onların uğursuz olmalarını müəyyən edilməsi hər zaman zəruri deyil.]*

d) *Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsulun İsitifadəsinə* zərurət, *İstifadə* dövründə *Qadağan edilmiş Maddə və ya Üsulun* (TİI olmadan) əvvəlki *İstifadəsinin* nə tam, nə də qismən nəticəsi deyildir.

*[Maddə 4.2 üçün şərh: "Tİİ Həkim Təlimatları" adlanan və ÜADA-nın veb-saytında yerləşdirilən ÜADA sənədləri, bu meyarların xüsusi tibbi vəziyyətlər (xəstəliklər) halında tətbiqində yardım üçün istifadə edilməlidir.*

*Tİİ təmin edilməsi yalnız 4.2-ci maddədə göstərilmiş şərtlərin nəzərdən keçirilməsinə əsaslanmalıdır. Bu, Qadağan edilmiş Maddə və ya Qadağan edilmiş Üsulun kliniki cəhətdən ən müvafiq və ya təhlükəsiz olub-olmamasını və ya onun İstifadəsinin bütün yurisdiksiyalarda qanuni olub-olmamasını nəzərdən keçirmir.*

*Beynəlxalq Federasiyanın və ya Əsas Tədbir Təşkilatının Tİİ Komitəsi, digər Antidopinq Təşkilatı tərəfindən təmin edilən Tİİ qərarının tanınıb-tanınmamasını müzakirə edəndə (bax 7-ci maddə) və ÜADA, Tİİ verilməsi (və ya verilməməsini) qərarını nəzərdən keçirəndə (bax 8-ci maddə), məsələn TİİK tərəfindən 6-cı maddəyə əsasən Tİİ üçün müraciətə baxılan zaman olduğu kimi olacaq, yəni İdmançı, ehtimallar balansı ilə 4.2-ci maddədə göstərilmiş şərtlərin hər birinin qarşılanmasını nümayiş etdirə bilib yoxsa yox?]*

**4.3** Müstəsna hallarda və bu *Terapevtik İstifadə üçün İstisnalar üzrə Beynəlxalq Standartın* heç bir müddəasına baxmayaraq, *İdmançı*, *Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsulun İstifadəsi* ilə bağlı retroaktiv *Tİİ* üçün müraciət edə və ala bilər, əgər *Məcəllənin* məqsədini nəzərə alaraq retroaktiv *TİI*-nin verilməməsi açıq-aydın ədalətsizlikdirsə. *Antidopinq Təşkilat*ı, bu maddəyə əsaslanaraq *Beynəlxalq* və *Milli səviyyəli İdmançıların* retroaktiv *TİI* üçün müraciətinə icazəsini yalnız *ÜADA*-nın əvvəlcədən alınmış təsdiqi ilə verə bilər (*ÜADA*, öz ixtiyarı ilə *Antidopinq Təşkilatının* qərarı ilə razılaşa bilər və ya onu rədd edə bilər).

*Beynəlxalq* və *Milli səviyyəli olmayan İdmançıların* retroaktiv *TİI* üçün müraciətləri, müvafiq *Antidopinq Təşkilatı* tərəfindən bu maddəyə əsaslanaraq *ÜADA* ilə məsləhətləşmədən təsdiq edilə bilər; lakin *ÜADA* istənilən vaxt *Antidopinq Təşkilatının* qərarına yenidən baxa, onu təsdiqləyə və ya rədd edə bilər.

Bu maddəyə əsasən *ÜADA* və / və ya *Antidopinq Təşkilatı* tərəfindən qəbul edilmiş hər hansı bir qərara antidopinq qaydalarının pozulmasına görə icraatda müdafiə kimi və ya apellyasiya vasitəsilə və ya başqa şəkildə sual altına qoyula bilməz.

*Antidopinq Təşkilatının* 4.3-cü maddəyə əsaslanaraq qəbul etdiyi bütün qərarlar, *TİI* müraciətinin təsdiq və ya rədd olmasından asılı olmayaraq 5.5-ci maddəyə uyğun olaraq *ADAMS* vasitəsilə bildirilməlidir.

*[4.3-cü maddə üçün şərh: Şübhələrin qarşısını almaq üçün, 4.2-ci maddənin şərtləri qarşılanmadığı halda belə 4.3-cü maddəyə uyğun olaraq retroaktiv təsdiq verilə bilər (lakin bu şərtlərin qarşılanması müvafiq olaraq nəzərə alınacaq). Digər müvafiq amillər arasında, lakin bunlarla məhdudlaşmayaraq, İdmançının niyə əvvəlcədən müraciət etməməsi; İdmançının təcrübəsi; İdmançının bu zamana qədər aldığı Təhsili; İdmançının Qadağan edilmiş Maddə və ya Qadağan edilmiş Üsulun istifadəsini Dopinq Nəzarət Formasında bəyan edib-etməməsi; İdmançının TİI-nin son istifadə müddətinin bu yaxınlarda başa çatması kimi səbəblər ola bilər. Öz qərarını verən zaman ÜADA, öz ixtiyarı ilə, ÜADA TİI Komitəsi üzvü(ləri) ilə məsləhətləşə bilər.]*

## 5.0 *ANTİDOPİNQ TƏŞKİLATLARININ Tİİ* ÜZRƏ ÖHDƏLİKLƏRİ

**5.1** *Məcəllə* Maddə 4.4, (a) hansı *Antidopinq Təşkilatlarının TİI* qərarlarını qəbul etmək səlahiyyətinə malik olduğu; (b) həmin *TİI* qərarları digər *Antidopinq Təşkilatları* tərəfindən necə tanınmalı və hörmət edilməli olduğu; və (c) *TİI* qərarlarına nə zaman nəzərdən keçirilə bilindiyir və ya apellyasiya edilə bilindiyi müəyyən edilir.

[*Maddə 5.1-ə şərh: Məcəllə Maddə 4.4-ün əsas müddəalarının icmal edən ardıcıllıq qrafiki üçün Əlavə 1-Məcəllə Maddə 4.4-ə baxın.*

*Milli qaydalar tələbləri və məqsədlərinə uyğun olaraq testlərin paylanması üzrə planlama məsələsində Milli Antidopinq Təşkilatları tərəfindən müəyyən idman növlərininə və ya yarımnövlərinə digərləri üzərində üstünlük verildikdə (Testlər və Tədqiqatlar üzrə Beynəlxalq Standartların 4.4.1 Maddəsində nəzərədə tutulduğu kimi), Milli Antidopinq Təşkilatı, bəzi və ya bütün qeyri-prioritetli idman növlərində və ya yarımnövlərində İdmançılardan TİI üçün öncədən müraciətləri nəzərdən keçirməkdən imtina edə bilər, lakin bu hallarda o, nəticə olaraq Nümunələri toplanan hər hansı belə İdmançıya retroaktiv TİI qərarı üçün müraciət etməyə icazə verməlidir. Milli Antidopinq Təşkilatı, bunun təsirinə məruz qalmış İdmançıların maarifləndirməsi məqsədilə bu cür siyasəti daimi olaraq öz veb- saytında ictimailəşdirməlidir.*

*Məcəllə Maddəsi 4.4.2, Milli Antidopinq Təşkilatının Beynəlxalq Səviyyəli olmayan İdmançılar üçün TİI qərarlarının qəbul etmək səlahiyyətini müəyyən edir. Beynəlxalq Səviyyəli İdmançı olmayan İdmançının TİI müraciətinə hansı Milli Antidopinq Təşkilatı tərəfindən baxılması məsələsi mübahisəyə səbəb olduqda, qərar ÜADA tərəfindən verilir. ÜADA-nın qərarı yekun qərar sayılır və apelyasiya edilə bilinməz.*]

**5.2** Şübhələrdən yayınmaq üçün qeyd etmək lazımdır ki, əgər *Milli Antidopinq Təşkilatı İdmançıya TİI* verərsə, o *TİI* qlobal əsaslarla Milli səviyyədə etibarlıdır və onun Maddə 7.0 uyğun olaraq digər *Milli Antidopinq Təşkilatları* tərəfindən rəsmi tanınmasına ehtiyyac yoxdur (məsələn, əgər *İdmançıya* öz ölkəsinin *Milli Antidopinq Təşkilatı* tərəfindən *TİI* verilibsə və o başqa *Milli Antidopinq Təşkilatının* ölkəsində yarışır və ya məşq edirsə, *İdmançı* belə digər *Antidopinq Təşkilatı* tərəfindən test edildiyi halda həmin *TİI* etibarlı sayılır.)

**5.3** Hər *Milli Antidopinq Təşkilatı,* Beynəlxalq Federasiya və *Əsas Tədbir Təşkilatı, TİI* verilməsi və ya tanınması üçün müraciətlərin Maddə 4.2 şərtlərinə uyğun olmasını müəyyən etmək üçün TİI Komitəsi təşkil etməlidir.

*[Maddə 5.3-ə şərh: Şübhələrdən yayınmaq üçün qeyd etmək lazımdır ki, Maddə 4.1 və 4.3 qeyd edilən şərtlərin qarşılanıb-qarşılanmaması, müvafiq Antidopinq Təşkilatı tərəfindən TİI Komitəsinin üzvü(ləri) ilə məsləhətləşərək təyin edilir.*

*Əsas Tədbir Təşkilatı əvvəlcədən verilən TİI qərarlarını avtomatik tanıya bilməsinə baxmayaraq, eyni zamanda Yarışda İştirak edən İdmançılar üçün yeni TİI alınması üçün mexanizmlər mövcud olmalıdır. Bu məqsədlə Əsas Tədbir Təşkilatı tərəfindən öz TİI Komitəsinin ayrıca yaradılması, ya da bu vəzifəni üçüncü tərəfə həvalə etmək üçün müraciət*

*etməsi Əsas Tədbir Təşkilatının ixtiyarına buraxılır. Hər bir halda məqsəd bu cür Tədbirlərdə Yarışan İdmançıların Yarışdan əvvəl tez və səmərli qaydada Tİİ əldə etmək qabiliyyətinin təmin edilməsidir.]*

a. *Tİİ* Komitələrində *İdmançılara* tibbi qayğı göstərilməsi və onların müalicəsində təcrübələri və kliniki, idman və məşq təbabətində dərin bilikləri olan ən azı üç (3) nəfər həkim üzv olmalıdır. Xüsusi təcrübə tələb olunan hallarda (məs., maddə və ya üsulun məhdud sağlamlıq imkanlarına malik *İdmançının* sağlamlıq pozuntusu ilə əlaqədar olduğu hallarda sağlamlıq pozuntusu olan İdmançılar üçün), *Tİİ* Komitəsinin ən azı bir (1) üzvü bu cür təcrübəyə malik olmalıdır.Bir (1) həkim üzv TİİK-in sədri kimi fəaliyyət göstərməlidir.

b. Qərarlarının bitərəfliyinin təmin edilməsi məqsədilə, *Tİİ* Komitəsinin bütün üzvləri maraqlar münaqişəsi və məxfilik üzrə bəyannamə imzalamalıdırlar. (bəyannamənin şablonu *ÜADA*-nın vebsaytında yerləşdirilib).

**5.4** Hər bir *Milli Antidopinq Təşkilatı*, Beynəlxalq Federasiya və *Əsas Tədbir Təşkilatı* öz TİİK-nə *Tİİ* müraciəti üçün bu *Beynəlxalq Standarta* cavab verən aydın proses təşkil etməlidir.

O, həmçinin müraciət prosesinin təfərrüatlarını (ən azı) veb-saytında görünən yerdə dərc etməlidir.

**5.5** Hər bir *Milli Antidopinq Təşkilatı,* Beynəlxalq Federasiya *və Əsas Tədbir Təşkilatı* öz *Tİİ* Komitələrinin müsbət və ya rəddetmə qərarları olmasından asılı olmayaraq bütün qərarları, o cümlədən başqa *Antidopinq Təşkilatların Tİİ* qərarlarının təsdiq və ya rədd edilməsi barədə qərarları mümkün qədər tez (ingilis və ya fransız dillərində) və istənilən halda qərarın alınmasından iyirmi bir (21) gündən gec olmayaraq *ADAMS* vasitəsilə dərhal hesabat verməlidirlər. *Tİİ* rəddetmə qərarı özünə rədd üçün səbəb(ləri)i daxil etməlidir. Təmin edilən *Tİİ* qərarı ilə bağlı məlumat hesabatına aşağıdakıların daxil edilməlidir ( ingilis və ya fransız dilində):

a) Maddə 4.1.-ə əsasən *İdmançıya* retroaktiv *Tİİ* üçün müraciət etməyə icazə verilib-verilməməsi və bunun səbəb(lər)in izahatı və ya *İdmançının* retroaktiv *Tİİ* üçün Maddə 4.3-ə əsasən müraciət etməyə icazə verilməsi və onu alib-almaması və bunun səbəb(lər)in izahatı;

b) İcazə verilmiş maddə və ya üsul, dozalar, istifadə tezliyi və icazə verilən *İstifadə* yolu, *Tİİ* müddəti (fərqlidirsə, həkim tərəfindən təyin edilmiş müalicənin müddəti) və *Tİİ* qərarı ilə bağlı qoyulan hər hansı digər şərtlər; və

c) *Tİİ* müraciət forması (ADAMS-da elektron şəkildə doldurulmadığı halda) və sözügedən *Tİİ*-yə aid Maddə 4.2 şərtlərinin qarşılanmasını sübut edən müvafiq kliniki məlumat (yalnız *ÜADA*, *İdmançının Milli Antidopinq Təşkilatı* və Beynəlxalq Federasiyası, *İdmançının* yarışmaq niyyəti olan *Əsas Tədbir Təşkilatının* istifadəsi üçün).

*[Maddə 5.5 üçün şərh: Tİİ müraciət forması istifadə olunursa, o, Antidopinq Təşkilatları tərəfindən başqa dillərə tərcümə oluna bilər, lakin orijinal ingilis və ya fransız dillərindəki mətn formanın üstündə qalmalıdır və məzmunun ingilis və ya fransız dilində tərcüməsi təmin edilməlidir*

*Diaqnostik testlər, laboratoriya nəticələri və göstəricilər daxil olmaqla tam tibbi iş təmin edilməlidir, amma onlar ingilis və ya fransız dilinə tərcümə edilməyə bilər. Buna baxmayaraq, bütün əsas məlumatların xülasəsinin tərcüməsi (əsas diaqnostik testlər də daxil olmaqla) diaqnozun dəqiq təyin edilməsi üçün kifayət məlumatla birlikdə ADAMS-a daxil edilməlidir. Qəti şəkildə təklif edilir ki, tibbi işin xülasəsi həkim və ya müvafiq tibbi biliklərə sahib şəxs tərəfindən tərtib edilsin ki, tibbi məlumatın düzgün anlaşılması və xülasələşdirilməsi mümkün olsun. Müvafiq Antidopinq Təşkilatı və ya ÜADA tərəfindən, müraciət əsasında daha ətraflı / tam tərcümələr tələb oluna bilər.]*

**5.6** *Milli Antidopinq Təşkilatı İdmançıya* müsbət *TİI* qərarını verirsə, o zaman o, yazılı şəkildə *İdmançıya* xəbərdarlıq etməlidir ki: (a) *TİI* yalnız milli səviyyədə etibarlıdır və (b) əgər *İdmançı Beynəlxalq səviyyəli İdmançıdırsa* və ya o, *Beynəlxalq Yarışda* çıxış etmək niyyətindədirsə, onda həmin *TİI* qərarı Maddə 7.0 şərtlərinə uyğun olaraq Beynəlxalq Federasiya və ya *Əsas Tədbir Təşkilatı* tərəfindən müvafiq qaydada tanınmadığı halda, yuxarıda göstərilən yarışlarda etibarlı sayıla bilməz. Bu səbəbdən *Milli Antidopinq Təşkilatı, İdmançıya TİI* qərarının Beynəlxalq Federasiya və ya *Əsas Tədbir Təşkilatı* tərəfindən tanınması üçün köməklik etməlidir və tanınma prosesi zamanı *İdmançını* müvafiq şəkildə təlimatlandırmalıdır.

**5.7** Hər bir Beynəlxalq Federasiya və ya *Əsas Tədbir Təşkilatı* bildiriş hazırlamalıdır (bunu ən azı öz internet saytında yerləşdirməlidir və ya *ÜADA*-ya göndərməlidir) və bu bildirişdə aydın şəkildə aşağıdakı məlumatlar əks olunmalıdır: (1) Onun tabeçiliyində olan hansı *İdmançılar* və nə zaman *TİI* qərarı üçün müraciət etməlidirlər; (2) Maddə 7.1 (a) şərtlərinə uyğun olaraq, digər *Antidopinq Təşkilatı* tərəfindən verilən hansı *TİI* qərarları bu cür müraciət əvəzinə avtomatik olaraq tanınır; (3) Maddə 7.1 (b) şərtlərinə uyğun olaraq, başqa *Antidopinq Təşkilatı* tərəfindən verilən hansı *TİI* qərarları tanınma üçün təqdim edilməlidir.

**5.8** *Milli Antidopinq Təşkilatı İdmançıya TİI* verərsə və həmin *İdmançı* sonradan *Beynəlxalq səviyyəli İdmançı* olsa və ya *Beynəlxalq Tədbirdə* yarışsa, sözügedən *TİI*, Maddə 7.0 uyğun olaraq müvafiq Beynəlxalq Federasiya tərəfindən tanına qədər etibarlı olmayacaq. Beynəlxalq Federasiya *İdmançıya TİI* versə və həmin *İdmançı* sonradan *Əsas Tədbir Təşkilatı* tərəfindən təşkil edən *Beynəlxalq Tədbirdə* yarışsa, sözügedən *TİI*, müvafiq *Əsas Tədbir Təşkilatı* tərəfindən Maddə 7.0 əsasən tanınana qədər etibarlı olmayacaq. Nəticə etibarı ilə, əgər Beynəlxalq Federasiya və ya *Əsas Tədbir Təşkilatı* (müvafiq olduğu halda) *TİI* qərarını tanımaqdan imtina edərsə, onda həmin *TİI* (*İdmançının* qərara təkrar baxılma və appelyasiya hüququndan asılı olaraq) həmin Beynəlxalq Federasiya və ya *Əsas Tədbir Təşkilatı* üçün *TİI* qərarında qeyd olunan *Qadağan olunmuş Maddə və ya Üsulun İstifadəsi*, *Sahibliyi* və ya *Tətbiqi* üçün etibarlı hesab edilə bilməz.

## 6.0 *TİI* QƏRARININ ALINMASI ÜÇÜN MÜRACİƏT PROSESİ

**6.1** *TİI* qərarına ehtiyacı olan *İdmançı* müvafiq qərar üçün mümkün qədər tez müraciət etməlidir. *İdmançı*, təcili və təxirəsalınmaz hadisə və ya istisna hallar istisna olmaqla, yalnız *Yarış*

*müddətində Qadağan edilmiş Maddələr* üçün iştirak edəcəyi *Yarışdan* ən azı 30 gün əvvəl müraciət etməlidir.

**6.2** *İdmançı*, təmin edilmiş *Tİİ* müraciət formasını istifadə edərək öz *Milli Antidopinq Təşkilatı*, Beynəlxalq Federasiyası və ya *Əsas Tədbir Təşkilatçısına* müraciət etməlidir. *Antidopinq Təşkilatı, İdmançılar* tərəfindən istifadə edilməsini istədikləri müvafiq müraciət formasını öz veb saytında yüklənmək üçün hazır etməlidir. Bu forma, *ÜADA*-nın veb saytındakı "*Tİİ* Ərizə Forması" şablonu əsasında hazırlanmalıdır. Şablon *Antidopinq Təşkilatı* tərəfindən bəzi əlavə məlumatları daxil etmək üçün dəyişdirilə bilər, lakin onun bölmə və bəndləri çıxarıla bilməz.

[Maddə 6.2 üçün şərh: Müəyyən vəziyyətlərdə, *İdmançı Tİİ* üçün hansı *Antidopinq Təşkilatına* müraciət edəcəyini bilməyə bilər. Belə hallarda *İdmançı*, yarışdığı idman təşkilatının (və ya üzvü olduğu və ya lisenziyasına sahib olduğu) mənsub olduğu ölkənin *Milli Antidopinq Təşkilatı* ilə məsləhətləşməli və onların qaydalarına əsasən həmin təşkilatın yurisdiksiyasına tabe olub-olmamasını təyin etməlidir.

Əgər həmin *Milli Antidopinq Agentliyi İdmançının Tİİ* müraciətini qiymətləndirməyi *İdmançının* özünün *Tİİ* yurisdiksiyasına tabe olmadığı üçün rədd edərsə, *İdmançı* yaşadığı ölkənin *Milli Antidopinq Təşkilatının* antidopinq qaydaları ilə bağlı məsləhətləşməlidir (əgər fərqlidirsə).

Əgər *İdmançı* hələ də o həmin *Milli Antidopinq Təşkilatının Tİİ* yurisdiksiyasına düşmürsə, o zaman *İdmançı* vətəndaşı olduğu ölkənin (əgər yaşadığı və ya yarışdığı ölkə ilə eyni deyilsə) *Milli Antidopinq Təşkilatının* antidopinq qaydaları ilə məsləhətləşməlidir.

*İdmançılar, Milli Antidopinq Təşkilatının Tİİ* səlahiyyətinə aid olub-olmadığını müəyyənləşdirmək üçün yuxarıda göstərilən *Milli Antidopinq Təşkilatları* ilə əlaqə saxlaya bilərlər. Yuxarıda göstərilən *Milli Antidopinq Təşkilatlarının* heç birinin *Tİİ* səlahiyyətinə malik olmadığı tədbirdə, *Qeyri-Əlverişli Analiz Nəticəsinin* aşkarlanması halında, *İdmançıya* adətən *Nəticələrin Emal edilməsi* səlahiyyətinə malik *Antidopinq Təşkilatına* retroaktiv *Tİİ* üçün müraciət etməsinə icazə verilməlidir. *ÜADA-nın veb saytının* tibbi bölməsində "Hara müraciət etməli?" hissəsindəki xülasə qarfikə baxın.]

**6.3** *İdmançı*, eyni tibbi problemə görə eyni *Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsulun İstifadəsi* üçün *Tİİ* üçün birdən (1) artıq *Antidopinq Təşkilatına* müraciət edə bilməz. Bundan əlavə, *İdmançı* eyni tibbi problemə görə eyni *Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsulun İstifadəsi* üçün birdən (1) artıq *Tİİ*-yə sahib ola bilməz (və hər hansı yeni *Tİİ*, əvvəlki üzərində üstünlük təşkil edir və köhnə *Tİİ*, müvafiq *Antidopinq Təşkilatı* tərəfindən ləğv edilməlidir).

**6.4** *İdmançı*, *Tİİ* üçün müraciəti *ADAMS* və ya *Antidopinq Təşkilatı* tərəfindən müəyyən edilən digər vasitə ilə təqdim etməlidir. Müraciət, hərtərəfli tibbi tarixçə, o cümlədən diaqnostikanı aparan həkim(lər)dən sənədlərin əslini (əgər mümkündürsə) və bütün müvafiq yoxlamamların, laborator araşdırmaların və görüntü müayinələrin nəticələri ilə müşaiyət edilməlidir. Müraciətin təyin olunmuş sahədə həkimin imzası mövcud olmalıdır.

*[Maddə 6.4 üçün şərh: Diaqnoz və müalicə ilə əlaqədar təqdim edilmiş məlumat, ÜADA-nın veb saytında nəşr edilən müvafiq ÜADA sənədlərinə uyğun olmalıdır.]*

**6.5** *İdmançı*, *Antidopinq Təşkilatına* təqdim edilmiş *TİI* üçün müraciəti və bütün material və sənədlərin tam surətini özündə saxlamalıdır.

**6.6** *TİI* üçün müraciət, yalnız bütün müvafiq sənədlərlə müşaiyət edilən müvafiq qaydada doldurulmuş müraciət TİİK tərəfindən alınmasından sonra nəzərdən keçirilə bilər. Natamam müraciət formaları təkrar doldurulma və təqdim olunma üçün *İdmançıya* geri qaytarılır.

**6.7** *TİI* Komitəsi, *İdmançı* və ya onun həkimi tərəfindən *İdmançının* müraciətinə baxılması üçün istənilən məlumatı, müayinə və ya görüntüləmə müayinələrinin nəticələri, ya da başqa bir məlumatıın təqdim edilməsini tələb edə bilər; və, ehtiyac olduğu hallarda, digər tibbi və ya elmi mütəxəssislərin yardımını istəyə bilər.

**6.8** *İdmançı*nın *TİI* üçün müraciət zamanı və *TİI* Komitəsi tərəfindən onun üçün tələb olunan əlavə məlumatların təqdim olunmasında çəkilmiş xərclər İdmançının öhdəliyidir.

**6.9** *TİI* Komitəsi, daxil olan müraciətin qəbul və ya imtina qərarını mümkün qədər tez verməlidir və bunu adətən (əgər istisna hal baş verməyibsə) tam müraciət formasının daxil olandan sonra iyirmi bir (21) gün ərzində başa çatdırmalıdır. Əgər *TİI* qərarı üçün müraciət *Yarışdan* ağlabatan dərəcədə əvvəl zamanda verilibsə, *TİI* Komitəsi müraciətə həmin *Yarışın* başlamasından əvvəl baxılması və qərarın verilməsi üçün əlindən gələni etməlidir.

**6.10** *TİI* Komitəsinin qərarı yazılı formada *İdmançıya* təqdim edilməlidir və Maddə 5.5-ə uyğun olaraq *ADAMS* sisteminə yüklənməlidir və *ÜADA*-ya və digər *Antidopinq Təşkilatlarına* bildirilməlidir.

**6.11** Hər bir *TİI*-nin *TİI* Komitəsi tərəfindən qərar verilmiş müəyyən etibarlılıq müddəti var, bu müddət bitdikdə, *TİI* avtomatik olaraq öz qüvvəsindən düşür. Əgər *İdmançının Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsulu TİI* qərarı qüvvədən düşdükdən sonra da *İstifadə* etməyə ehtiyacı varsa, onda o, cari qərarın qüvvədən düşməsindən əvvəl yeni *TİI* üçün müraciət etməlidir ki, etibarlılıq müddəti bitənə qədər müraciətə baxılma üçün kifayət qədər vaxt olsun.

*[Maddə 6.11 üçün şərh: Mümkün olduğu halda, etibarlılıq müddəti "TİI həkimi üçün təlimat" adlı ÜADA sənədinə uyğun olmalıdır.]*

**6.12** *İdmançı TİI* qərarını verən *Antidopinq Təşkilatının* tələb və şərtlərini tam və vaxtında yerinə yetirmədiyi halda, *TİI* qərarı, qüvvədən düşmə tarixindən daha tez qüvvədən düşə bilər. Alternativ olaraq, *TİI* qərarı, *ÜADA* tərəfindən təkrar nəzərdən keçirilə və ya appelyasiyadan sonra ləğv oluna bilər.

**6.13** *Qadağan edilmiş Maddə* üçün verilmiş *TİI* qərarının qüvvədən düşməsi, geri çağrılması və ya ləğv edilməsindən dərhal sonra *Qeyri-Əlverişli Analiz Nəticələri* aşkar ediləndə, *Qeyri-Əlverişli Analiz Nəticələrinin* ilkin nəzərdən keçirən *Antidopinq Təşkilatı, Məcəllənin* Maddə 7.0-a əsaslanaraq, bu nəticənin sözügedən *TİI*-nin qüvvədən düşməsi, geri çağrılması və ya

ləğvindən əvvəl *Qadağan edilmiş Maddənin İstifadəsilə* uyğunluğunu müəyyən etməlidir. Əgər bu belədirsə, belə *İstifadə* (və ya *Qadağan edilmiş Maddənin İdmançının Nümunəsində* nəticə etibari ilə hər hansı mövcudluğu), bu hal *Antidopinq qaydala pozuntusu* sayılmır.

**6.14** Əgər müsbət *Tİİ* qərarı verildikdən *sonra İdmançıya Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsulun* fərqli doza, qəbul tezliyi və ya müddətdə istifadəsi tələb olunursa, bu halda *İdmançı* yeni *Tİİ* qərarı üçün müraciət etməlidir. Əgər *Qadağan edilmiş Maddə* və ya *Qadağan edilmiş Üsulun İstifadəsi, Saxlanılması və ya Qəbul edilməsi* təmin edilmiş *Tİİ* qərarın şərltləri ilə uyğun deyilsə, bu halda *Tİİ* qərarın olması faktı analiz nəticələrinin antidopinq qaydalarının pozulması kimi qiymətləndirilməsindən qorumur.

*[Maddə 6.14 üçün şərh: Müəyyən xəstəliklər üçün, xüsusilə müalicə rejiminin qurulmasının erkən mərhələlərində və ya insulindən asılı diabet kimi xəstəliklər üçün dozaların dəyişə biləcəyi qəbul edilir. Belə potensial dəyişmələr Tİİ-də nəzərə alınmalıdır. Buna baxmayaraq, Tİİ-də nəzərə alınmayan bir dəyişiklik baş verərsə, İdmançı yeni Tİİ-nin tələb olub-olmadığını müəyyən etmək üçün müvafiq Antidopinq Təşkilatı ilə əlaqə saxlamalıdır.]*

## 7.0 *Tİİ* Tanınma Prosesi

**7.1** *Məcəllə* Maddə 4.4-ə əsasən, *Antidopinq Təşkilatları* başqa *Antidopinq Təşkilatı* tərəfindən verilən və Maddə 4.2 şərtlərinə uyğun olan *Tİİ* qərarlarını tanımalıdır. Bununla bağlı olaraq, artıq *Tİİ* qərarı olan *İdmançı* Beynəlxalq Federasiya və ya *Əsas Tədbir Təşkilatının Tİİ* tələbləri ilə rastlaşırsa, o, yeni *Tİİ* qərarı üçün Beynəlxalq Federasiya və ya *Əsas Tədbir Təşkilatına* müraciət etməməlidir. Bunun əvəzinə:

a) Beynəlxalq Federasiya və ya *Əsas Tədbir Təşkilatı* bildiriş nəşr edə bilərlər ki, *Məcəllə* Maddə 4.4-ə uyğun verilmiş *Tİİ* qərarları (ya da belə qərarların müəyyən kateqoriyaları, məsələn konkret *Antidopinq Təşkilatları* tərəfindən verilmiş və ya xüsusi *Qadağan edilmiş Maddələrə* aid qərarlar) avtomatik tanınır, o şərtlə ki, həmin *Tİİ* qərarları barədə Maddə 5.5-in şərtlərinə uyğun olaraq hesabat verilib. Əgər *İdmançının Tİİ*-si verilən zaman avtomatik tanınan *Tİİ* kateqoriyasına düşürsə, onda *İdmançı* tərəfindən heç bir əlavə tədbir görülməməlidir. *Tİİ* avtomatik olaraq tanındıqdan sonra *Antidopinq Təşkilatı* tərəfindən əlavə nəzərdən keçirilə bilməz

*[Maddə 7.1 (a) üçün şərh: Tİİ qərarlarının avtomatik tanınması İdmançıların yükünü yüngülləşdirə bilər. Buna baxmayaraq, Beynəlxalq Federasiyalar və Əsas Tədbir Təşkilatları avtomatik olaraq tanıyacaqları Antidopinq Təşkilatlarını və / və ya maddələri diqqətlə seçməlidirlər. Əgər Beynəlxalq Federasiya və ya Əsas Tədbir Təşkilatı Tİİ qərarlarının avtomatik tanınmasını təmin etmək istəyirsə, o, öz internet saytında Tİİ qərarlarını avtomatik tanıyacağı Antidopinq Təşkilatlarının siyahısını və/və ya Tİİ qərarlarının avtomatik olaraq tanınacağı Qadağan Edilmiş Maddələrin siyahısını dərc etməli və yenilənməlidir.]*

b) Bu cür avtomatik tanınma olmadığı halda, *İdmançı*, verilmiş *Tİİ*-nin tanınması üçün müraciətini *ADAMS* və ya Beynəlxalq Federasiya və ya *Əsas Tədbir Təşkilatı* tərəfindən müəyyən edilmiş başqa vasitə ilə Beynəlxalq Federasiya və ya *Əsas Tədbir Təşkilatına* təqdim etməlidir.

*[Maddə 7.1 (b) üçün şərh: Tanınma yalnız 4.2-ci maddənin şərtlərinin təmin edilməsinə əsaslanır. Müvafiq olaraq, təkcə Tİİ müddəti tanınmanı rədd etmək üçün əsas deyil (4.2-ci maddənin şərtlərinin təmin edilməsi ilə bağlı olmadıqda). Müvafiq hallarda, Tİİ müddəti ÜADA Tİİ Həkimlər üçün Təlimatlarına əsaslanmalıdır.]*

**7.2** *Tİİ* qərarlarının tanınması üçün göndərilən müraciətlər natamam olduqda *İdmançıya* geri göndəriləcəkdir. Əlavə olaraq, Tİİ Komitəsi, *İdmançı* və ya onun həkimindən *Tİİ* qərarın baxılması üçün lazım olan istənilən tibbi sənədlər, görüntüləmə müayinələrinin nəticələri və başqa zəruri hesab etdiyi məlumatları tələb edə bilər; və/və ya lazım olduğu halda müəyyən sahələrdə ekspertlərin rəyləri istənilə bilər.

**7.3** *İdmançı* tərəfindən *Tİİ* qərarlarının tanınması üçün edilən müraciət zamanı və *Tİİ* Komitəsi tərəfindən onun üçün tələb olunan əlavə məlumatların təqdim olunmasında çəkilmiş xərclər İdmançının öhdəliyidir.

**7.4** *Tİİ* Komitəsi, *Tİİ*-nin tanınıb-tanınmamasına dair qərarını mümkün qədər tez verməlidir və bunu adətən (əgər istisna hal baş verməyibsə) tam müraciət formasının daxil olandan sonra iyirmi bir (21) gün ərzində başa çatdırmalıdır. Əgər *Tİİ* qərarı üçün müraciət *Yarışdan* ağlabatan dərəcədə əvvəl zamanda verilibsə, *Tİİ* Komitəsi müraciətə həmin *Yarışın* başlamasından əvvəl baxılması və qərarın verilməsi üçün əlindən gələni etməlidir.

**7.5** *Tİİ* Komitəsinin qərarı *İdmançıya* yazılı şəkildə göndərilməlidir və eyni zamanda *ÜADA* və digər *Antidopinq Təşkilatlarına ADAMS* vasitəsilə bildirilməlidir. *Tİİ*-nin tanınmasına imtina qərarı özünə belə imtinanın izahlı səbəb(lər)ini daxil etməlidir.

**7.6** Beynəlxalq Federasiya, test üçün *Beynəlxalq səviyyəli olmayan İdmançını* seçərsə, həmin *İdmançının Beynəlxalq Tədbirdə* iştirak etdiyinə görə Maddə 5.8 və Maddə 7.0 uyğun olaraq *Tİİ*-nin tanınması üçün müraciət etməli olduğu hal istisna olmaqla, o, *İdmançının Milli Antidopinq Təşkilatı* tərəfindən verilən *Tİİ*-ni tanımalıdır.

## 8.0 *Tİİ* qərarlarının *ÜADA* tərəfindən nəzərdən keçirilməsi

**8.1** *Məcəllə* Maddə 4.4.6 müəyyən edir ki, *ÜADA* müəyyən hallarda Beynəlxalq Federasiyalarının *Tİİ* qərarlarına yenidən baxmalıdır və o, hər bir halda Maddə 4.1 və 4.2 şərtlərinə riayəti müəyyən etmək üçün istənilən *Tİİ* qərarına yenidən baxa bilər. Maddə 4.2-nin müddəaları ilə əlaqədar olaraq, *ÜADA*, bu cür yenidən baxışların həyata keçirilməsi üçün Maddə 5.3-ün tələblərinə cavab verən *ÜADA*-nın *Tİİ* Komitəsini yaratmalıdır. Maddə 4.1-in müddəaları ilə əlaqədar olaraq, bunlar *ÜADA* tərəfindən nəzərdən keçirilə bilər (hansı ki, öz ixtiyarı ilə *ÜADA Tİİ* Komitəsinin üzvü(ləri) ilə məsləhətləşə bilər).

**8.2** Qərara baxılma üçün hər bir müraciət *ÜADA*-ya yazılı formada təqdim edilməlidir və bu müraciət *ÜADA* tərəfindən hazırlanan müraciət haqqının ödənişi, o cümlədən Maddə 6.4-də müəyyən

edilmiş bütün məlumatların surətləri (və ya, *Tİİ* müraciətinin rədd edilməsi halında, *İdmançının* orijinal *Tİİ* ərizəsi ilə təqdim etdiyi bütün məlumatlar) ilə müşaiyət edilməlidir. Müraciətin surəti, qərarına baxılacaq *Antidopinq Təşkilatına* və *İdmançıya* göndərilmədir (əgər o qərara yenidən baxılmasını tələb edən tərəf deyilsə).

**8.3** Əgər yenidən baxılma üçün müraciətə *ÜADA*-nın baxma öhdəliyi yoxdursa, *ÜADA*, müraciətin alınmasından sonra praktiki cəhətdən mümkün qədər qısa zamanda *İdmançıya Tİİ* qərarına baxıb-baxmayacağını bildirməlidir. *ÜADA*-nın *Tİİ* qərara baxılmama qərar yekundur və ona appelyasiya qəbul edilmir. Buna baxmayaraq, *Məcəllə* Maddə 4.4.7-yə uyğun olaraq *Tİİ* qərarına yenə də appelyasiya şikayəti verilə bilər.

**8.4** Müraciətin *ÜADA* tərəfindən baxılma öhdəliyi olan Beynəlxalq Federasiya tərəfindən verilən *Tİİ* qərarına dair müraciət olduğa halda belə, *ÜADA*, buna baxmayaraq, həmin qərarı: (a) aydınlaşdırma üçün (məsələn, qərarda səbəblər aydın şəkildə göstərilmədiyi halda); və/və ya (b) Beynəlxalq Federasiya tərəfindən qərarına yenidən baxılması üçün (məsələn, əgər müraciətə yalnız Maddə 4.2 müddəalarının cavab verilməsini nümayiş etdirmək üçün tələb edilən tibbi testlər və digər məlumatın çatışmamazlığı səbəbindən rədd cavabı verilibsə) Beynəlxalq Federasiyaya geri yönləndirə bilər.

*[Maddə 8.4 üçün şərh: Əgər Beynəlxalq Federasiya yalnız Maddə 4.2 müddəalarının cavab verilməsini nümayiş etdirmək üçün tələb edilən tibbi testlər və digər məlumatın çatışmamazlığı səbəbindən Milli Antidopinq Təşkilatının verdiyi Tİİ-ni tanımaqdan imtina edibsə, məsələ ÜADA-ya yönləndirilməməlidir. Bunun əvəzinə, sənədlər yenidən toplanmaslı və Beynəlxalq Federasiyaya təkrarən təqdim olunmalıdır.]*

**8.5** Əgər yenidən baxılması üçün qərar *ÜADA*-nın *Tİİ* Komitəsinə yönləndirilibsə, *ÜADA*-nın *Tİİ* Komitəsi, Maddə 6.7-də təsvir edildiyi kimi əlavə tədqiqatlar daxil olmaqla *Antidopinq Təşkilatı* və/və ya *İdmançıdan* əlavə məlumatlar tələb edə və/və ya müvafiq hesab etdiyi kimi digər tibbi və elmi mütəxəssislərin yardımını əldə edə bilər.

**8.6** *ÜADA*, Maddə 4.1 və Maddə 4.2-ə uyğun olmayan hər bir *Tİİ* icazəsini ləğv edə bilər. Əgər *Tİİ* qərarı proaktiv qərar kimi verilmişdirsə (retroaktiv *Tİİ* qərarı yox), belə ləğv etmə *ÜADA* tərəfindən təyin edilən tarixdə qüvvəyə minəcək (bu tarix, *ÜADA*-nın *İdmançıya* verdiyi bildirişin tarixindən erkən olmamalıdır). Ləğvetmə qərarı retroaktiv tətbiq olunmamalıdır və *İdmançının* nəticələri belə bildirişdən daha erkən olduğu halda *Diskvalifikasiya* edilməməlidir. Əgər ləğv edilən *Tİİ* qərarı retroaktiv *Tİİ* qərarı olmuşdursa, onda ləğvetmə qərarı da retroaktiv olmalıdır.

**8.7** *ÜADA, Tİİ* ərizəsinin Maddə 4.1 və Maddə 4.2-yə cavab verdiyi hallarda *Tİİ* üçün hər hansı rədd qərarını ləğv edəcək, yəni *Tİİ*-yə icazə verəcək.

**8.8** *ÜADA*, *Məcəllə* Maddə 4.4.3-ə uyğun olaraq Beynəlxalq Federasiyanın ona yönləndirilmiş qərarına baxırsa (yəni, mütləq şəkildə baxılmalı olan qərar), o, baxılma nəticəsində "uduzan" istənilən *Antidopinq Təşkilatından* (yəni, qərarını təsdiq etmədiyi *Antidopinq Təşkilatından*) (a) *ÜADA*-ya bu qərarı yönləndirən tərəfin müraciətlə bağlı xərclərin geri qaytarılmasını (əgər müvafiqdirsə); və ya (b) *ÜADA*-nın sözügedən baxılma ilə bağlı və müraciət haqqı ilə əhatə olunmayan xərclərinin ödənilməsini tələb edə bilər.

**8.9** *ÜADA*, öz ixtiyarı ilə baxılmasına qərar verdiyi *Tİİ* qərarını ləğv edərsə, *ÜADA* həmin qərarı vermiş *Antidopinq Təşkilatından* *ÜADA*-nın bu baxılma ilə əlaqədar xərclərinin tam ödənilməsini tələb edə bilər.

**8.10** Əgər müvafiqdirsə, *ÜADA*, *ÜADA*-nın *Tİİ* Komitəsinin əsaslandırılmış qərarını *İdmançı* və onun *Antidopinq Təşkilatı* və Beynəlxalq Federasiyasına (və, əgər müvafiqdirsə, *Əsas Tədbir Təşkilatına*) mümkün qədər tez göndərməlidir.

## 9.0 Məlumat məxfiliyi

**9.1** *Tİİ* prosesi zamanı *Antidopinq Təşkilatı* tərəfindən Şəxsi Məlumatların Emalı, Məxfiliyin və Şəxsi Məlumatın Qorunması üzrə *Beynəlxalq Standarta* uyğun şəkildə icra edilməlidir. *Antidopinq Təşkilatları*, Şəxsi Məlumatın Qorunması üzrə *Beynəlxalq Standarta* və müvafiq qanunlara uyğun olaraq bu cür Emal üçün etibarlı səlahiyyətə və ya əsasa malik olmalıdırlar.

**9.2** *Antidopinq Təşkilatları*, Şəxsi Məlumatın Qorunması üzrə *Beynəlxalq Standartın* Maddə 7.1-inə uyğun olaraq *İdmançıya Tİİ* verilməsi və ya tanınması üçün müraciət ilə əlaqədar, aşağıdakı məlumatları, habelə digər müvafiq məlumatları *İdmançılara* yazılı şəkildə çatdırmalıdırlar:

a) Müraciətlə əlaqədar bütün məlumat, *Beynəlxalq Standarta* əsasən işə baxmaq səlahiyyətlərinə malik olan bütün *Tİİ* Komitələrinin üzvlərinə və, ehtiyac olanda, *Tİİ* müraciətlərinin idarəedilməsi, yenidən baxılması və apellyasiyasına cəlb edilən müstəqil tibbi və ya elmi mütəxəssislərə və digər bütün zəruri heyətə (o cümlədən, *ÜADA*-nın heyətinə) ötürüləcək;

b) *İdmançı*, *Tİİ* Komitəsi tərəfindən *İdmançının* ərizəsini nəzərdən keçirilməsi və qərar verilməsi üçün zəruri hesab etdiyi hər hansı sağlamlıq məlumatın müvafiq TİİK sorğusu əsasında həkimi(ləri) tərəfindən verilməsi üçün icazə verməlidir; və

c) Ərizə barədə qərar, *İdmançı* üzərində *Test və/və ya Nəticələrin Emalı* səlahiyyətinə malik bütün *Antidopinq Təşkilatlarına* bəyan ediləcəkdir.

*[Maddə 9.2 üçün şərh: Antidopinq Təşkilatlarının Tİİ prosesi ilə əlaqədar Şəxsi Məlumatları Emalı üçün İdmançının razılığına əsaslandığı hallarda, Tİİ-nin verilməsi və ya tanınması üçün müraciət edən İdmançı yuxarıda göstərilənlərə yazılı və aydın razılıq verməlidir.]*

**9.3** *Tİİ* üçün müraciət forması ilə sərt tibbi məxfilik prinsiplərinə uyğun şəkildə müraciət edilməlidir. Bütün müvafiq *Tİİ* Komitələrinin üzvləri, məsləhətləşmələr aparılan hər hansı müstəqil mütəxəssislər və *Antidopinq Təşkilatının* müvafiq heyəti prosesIə əlaqədar bütün fəaliyyətlərini sərt məxfilik şəraitində icra etməlidirlər və müvafiq məxfilik müqavilələri imzalamalıdırlar. Onlar, xüsusi olaraq aşağıdakı məlumatları məxfi saxlamalıdırlar:

a) *İdmançı* və *İdmançının* müalicəsində iştirak edən həkim(lər) tərəfindən təqdim olunmuş bütün tibbi məlumat.

b) Ərizənin bütün təfərrüatları, o cümlədən prosesə cəlb olunan həkim(lər)in ad(lar)ı.

**9.4** *İdmançı*, <u>*Tİİ* Komitəsinin</u> onun adından onun istənilən sağlamlıq məlumatını əldə etmək hüququnu ləğv etmək istəyirsə, *İdmançı* belə ləğvetmə barədə öz həkimini yazılı şəkildə xəbərdar etməlidir; bu halda, həmin ləğvetmənin nəticəsi olaraq *İdmançının Tİİ* üçün müraciəti və ya artıq mövcud olan *TİI*-nin tanınması üçün müraciəti avtomatik olaraq icazə/tanınma verilmədən baxılmadan geri çağırılır.

**9.*5*** *Antidopinq Təşkilatları*, *İdmançı* tərəfindən *TİI* müraciəti ilə əlaqədar təqdim edilmiş məlumatları yalnız ərizənin qiymətləndirilməsi üçün və potensial antidopinq qaydaları pozuntusu təhqiqatları və icraatları kontekstində istifadə etməlidirlər.

**Əlavə I: *Məcəllənin* 4.4-cü maddəsinin qrafikləri**

1. *TİI* prosesi, *Beynəlxalq səviyyəli olmayan İdmançının TİI*-yə ehtiyacı olanda



2. Idmançı öz TİI tələbləri olan Əsas Tədbir Təşkilatında (ƏTT) iştirak edərsə



**3.** Əgər İdmançı Beynəlxalq səviyyəli idmançıdırsa ( və Beynəlxalq Federasiyanın TİI tələblərinə tabə olduqda) TİI-ya ehdiyac olduqda TİI proseduru





AMADA
STAY CLEAN

WORLD
ANTI-DOPING
AGENCY
play true

2023